***FƏSƏFƏ VƏ SOSİOLOGİYA***

https://doi.org/10.59849/3006-1342.2026.2.107
UOT 327.5

*Elgün Məhəmmədəli oğlu Aslanov*
*ADAU, İctimai fənlər kafedrasının müdiri*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: e.aslanov85@mail.ru*
*https://orcid.org/0009-0003-9856-1219*
*İlham Mabud oğlu Məmmədov*
*Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrası*
*Baş müəllim*
*E-mail: humanitarelmler@gmail.ru*
*https://orcid.org/0000-0003-4703-7241*
*Elvira İsmayıl qızı Əhmədova*
*ADAU İctimai fənlər kafedrası*
*Baş müəllim*
*E-mail: axmedova.elvira.84@mail.ru*
*https://orcid.org/0009-0002-5224-1829*

# MÜASİR DÜNYADA SÜLH VƏ TƏHLÜKƏSİZLİYƏ ÇAĞIRIŞLAR: YENİ DÜNYA NİZAMI VƏ GEOSİYASƏT

*II Dünya müharibəsindən sonra və xüsusilə 1950-1960-cı illərdə ABŞ və Avropada gedən sosial-iqtisadi və hərbi-siyasi proseslər yeni dünya düzəninin formalaşmasına təkan verdi. Lakin tezliklə məlum oldu ki, dünyanın fövqəldövlətləri tərəfindən qurulan dünya nizamı nə sülhün və təhlükəsizliyin qorunmasına, nə də yer üzündə ədalətin bərqərar edilməsinə şərait yaratmır. O dövrdə ayrı-ayrı güc mərkəzlərinin maraqları naminə yaradılmış təhlükəsizlik sistemi nəinki, bu gün özünü doğrultmur, hətta onilliklər əvvəl süni şəkildə yaradılmış və həlli dalana dirənmiş çoxsaylı münaqişələri qızışdırır. Təqdim olunan elmi məqalədə XX əsrin 50-60-cı illərində ABŞ və Qərbi Avropada baş verən hərbi-siyasi proseslərin təsiri altında bütün dünyada yeni gərginlik ocaqlarının yaranması, bir-biri ilə ölüm-dirim mübarizəsi aparan ABŞ və SSRİ-nin başçılıq etdiyi iki sistemin formalaşması araşdırılır. Müasir dövrlə bağlı məqamlarda isə başlıca diqqət yer üzündə sülhün və təhlükəsizliyin bərqərar edilməsinə maneə olan problemlərin mahiyyətinin və təsir mexanizmlərinin müəyyən edilməsinə yönəlmişdir. Bu problemlərin həlli ilə bağlı müddəalar yeni dünya nizamının qurulması kontekstində nəzərdən keçirilir. Dünya dövlətlərinin qlobal siyasət və geosiyasətlə bağlı planlarının mahiyyəti açıqlanır və perspektivləri aydınlaşdırılır. Məqalədə XX əsrin ikinci yarısında başlayan və gündən-günə güclənən qarşıdurmanın Yer kürəsində bu gün mövcud olan gərginliyin əsasını qoyduğu fikri vurğulanır. Bütün tarix boyu qaçılmaz olan müharibə və münaqişə ideyasının ümumbəşəri ssenarinin bir hissəsi olaraq qalması ideyası məqalənin leytmotivini təşkil edir.*

*Açar sözlər:* geosiyasət, qlobal siyasət, yeni dünya nizamı, müharibə, sülh

## *Giriş*

Müasir dünyada cərəyan edən hərbi-siyasi proseslər II Dünya müharibəsindən dərhal sonra yeni qarşıdurma səviyyəsinə yüksəldi. Mövcud qlobal ssenari ilə 78 il əvvəl düşünülmüş dünya nizamı konsepsiyası arasında paralellər apararkən başa düşmək olur ki, bu

gün qlobal miqyasda baş verənlər heç də təsadüf deyil. II Dünya müharibəsindən sonra, 1946-cı il mart ayının 5-də o zaman artıq Böyük Britaniyanın keçmiş baş naziri olan Uinston Leonard Spenser Çörçillin (1874-1965, 1940-1945 və 1951-1955-ci illərdə Böyük Britaniyanın Baş naziri) Fulton (ABŞ-ın Missuri ştatı) şəhərində yerləşən məşhur Westminster Kollecində "Sülh qüvvələri" adlı çıxışı dünya münaqişələri tarixində yeni dövrün başlanğıcını qoydu. "Soyuq müharibə" kimi səciyyələndirilən bu dövrə nəzər saldıqda dünyanın fövqəldövlətlərinin daha yeni taktiki üsullardan istifadə edərək sonu görünməyən dünya müharibəsi aparmağa başladığını görmək olar. Bu dövrdə cərəyan edən hadisələr, dünyanın aparıcı siyasi liderlərinin bəyanatları və onların həyata keçirdikləri siyasi kurs sübut edirdi ki, dünya müharibəsiz, münaqişəsiz əsla yaşaya bilməz. Bəşəriyyətə misli görünməmiş fəlakətlər gətirən və milyonlarla insanın faciəsinə səbəb olan II Dünya müharibəsindən sonrakı hadisələrin xronikasına nəzər saldıqda da bu acı həqiqəti aydın şəkildə görmək mümkündür. Bu zaman ABŞ və SSRİ-nin rəhbərliyi altında dünya dövlətlərinin hərbi blokları və siyasi təşkilatları yaradıldı. Beləliklə, iqtisadi rəqabət və hərbi-siyasi mübarizə daha fəal fazaya daxil oldu.

Bu gün qlobal cəmiyyətdə baş verən dəyişikliklər qlobal təhlükəsizlik məsələlərinə adekvat şəkildə yanaşmağı tələb edir. Odur ki, hərbi-siyasi vəziyyətin öyrənilməsi, ictimai-siyasi tarazlığa və sabitliyə qarşı təhdidlərin qarşısının alınması üçün təsirli tədbirlərin hazırlanması təxirəsalınmaz zərurətə çevrilib. Bu kontekstdə yeni dünya düzəni üçün modelin nəzəri inkişafı xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. Bu məqalə davamlı təhlükəsizlik mexanizmlərinin yaradılması zərurətini diktə edən XX əsrin ikinci yarısında baş verən hərbi-siyasi hadisə və prosesləri araşdırır.

Tədqiqatın əsas obyekti II Dünya müharibəsindən sonra başlayan siyasi proseslərin gedişi və nəticələri, həmçinin "Soyuq Müharibə" dövründə formalaşmış beynəlxalq münasibətlərin məntiqi davamı olan siyasi münaqişələrin inkişaf tendensiyalarıdır. Bu tədqiqatın subyekti qlobal miqyasda ictimai-siyasi problemlərin tənzimlənməsi və ədalətli həlli üçün həyata keçirilən müxtəlif tədbirlər hesab olunur.

Tədqiqatın əsas məqsədi isə II Dünya müharibəsindən sonra dünyada davam edən münaqişəli vəziyyətlərin səbəblərini müəyyən etməkdir. Tədqiqatın məqsədlərinə nail olmaq üçün aşağıdakı mühüm vəzifələrin həlli nəzərdə tutulur:

- müasir dünya tarixində durmadan artan hərbi-siyasi gərginliyin əsas səbəblərini müəyyən etmək;
- gərginliyin aradan qaldırılması və dayanıqlı sülhə nail olunması üçün lazım olan siyasi iradənin və sülh çağırışlarının mahiyyətini və əhəmiyyətini təsdiq etmək;
- yeni dünya nizamının qurulmasında kompromisin və sağlam düşüncənin həlledici rolunu müəyyən etmək.

Tədqiqatın nəzəri-metodoloji əsaslarını XX əsrin ikinci yarısında dünya siyasətinin təşkili və həyata keçirilməsi ilə bağlı aparılan fundamental elmi tədqiqatlar təşkil edir. 5 səhifədən ibarət olan elmi tədqiqat işi giriş, əsas hissə, nəticə və istinadlar hissəsindən ibarətdir. Giriş hissədə tədqiqatın aktuallığı, obyekti, mövzusu, məqsədi və vəzifələri təsvir edilmişdir.

**XX əsrin ikinci yarısında beynəlxalq münasibətlərin xarakteri və qlobal təhlükəsizlik sferasında yaranan problemlərin ekzistensial xarakteri**

1949-cu ildə sosialist yönümlü Avropa və dünya dövlətlərinin iştirak etdiyi Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yaradıldı. 1949-1991-ci illərdə fəaliyyət göstərən və hökumətlərarası iqtisadi təşkilat olan QİYŞ 1949-cu il yanvar ayının 18-də SSRİ, Albaniya, Bolqarıstan, Macarıstan, Polşa və Rumıniya dövlət başçılarının birgə qərarı ilə yaradılmış və 28 iyun 1991-ci ildə ləğv edilmişdir. Təşkilatın Mənzil-qərargahı SSRİ-nin paytaxtı Moskva

şəhərində yerləşirdi. Sosialist dövlətlərinin iqtisadi ittifaqının yaradılması təşəbbüsünə cavab olaraq Qərbi Avropa dövlətləri də dərhal özlərinin iqtisadi təşkilatını - Avropa İqtisadi Birliyini (AİB) yaratdılar. 12 Avropa dövlətini birləşdirən həmin regional inteqrasiya birliyi 1957-ci ildə yaradılmış və 1993-cü ildə əvvəlki strukturda öz fəaliyyətini dayandıraraq və yeni qurum (Avropa İttifaqı) kimi fəaliyyətə başlamışdır. Beləliklə, qlobal hərbi-siyasi, iqtisadi və ideoloji qarşıdurma ilə səciyyələnən yeni tarixi dövr dünyanın əvvəlki görkəmini sürətlə və inadla dəyişməyə başladı. İdeoloji hücum bu dövrdə qlobal mübarizənin əsas strategiyası olsa da, onun subyektləri ayrı-ayrı lokal münaqişələrdə də iştirak edirdilər. XX əsrin 50-ci illərində qlobal sosializm sistemində təmsil olunan Çin Xalq Respublikasının SSRİ ilə isti münasibətlərinə baxmayaraq, ona qarşı ərazi iddiaları ilə çıxış etməyə başladı. Tərəflər arasında ciddi qarşıdurma isə 1969-cu ildə yarandı. O zaman Damansk adasında (Xabarovskdan 230 km cənubda, Ussuri çayının orta axarında yerləşir, “Damansk” sözünün mənası “Qiymətli ada” deməkdir. Ada 1991-ci ildən Çin Xalq Respublikasına məxsusdur) SSRİ ilə Çin Xalq Respublikasının hərbi qüvvələri arasında silahlı toqquşma baş vermiş və Sovet ordusu Çin hərbi qüvvələrinə gözlənilməz sarsıdıcı zərbə endirmişdi.

XX əsrin 50-80-ci illərində dünya siyasətinin xarakterini “Soyuq müharibə” təşkil edirdi. Qeyd edək ki, “Soyuq müharibə” terminini, ilk dəfə, 1945-ci il oktyabr ayının 19-da ingilis yazıçısı, jurnalisti və publisisti Corc Artur Oruell (1903-1950) həftəlik “Tribun” qəzetində dərc olunan “Sən və Atom Bombası” adlı məqaləsində işlətmişdir. Bu hadisə rəsmi mənbələrdə “Trumen doktrinası” (1945-1953-cü illərdə Demokratlar Partiyasından 33-cü ABŞ prezidenti olmuş Harri S.Trumenin 12 mart 1947-ci il tarixində ABŞ Konqresindəki çıxışında elan etdiyi hərbi-siyasi müddəalar toplusu). “Trumen doktrinası”nda qeyd olunurdu ki, “II Dünya müharibəsindən sonra yeni dünyanın bir çox xalqlarının iradəsinə zidd olaraq çoxlu sayda totalitar rejimlər qurulmuşdur”. Həmin rejimlərə qarşı mübarizə isə ABŞ-ın rəhbərliyi altında dünyanın demokratik dövlətlərinin hərbi-siyasi doktrinasına çevrilməlidir.

Qeyd edək ki, müasir dünya tarixində “Soyuq müharibə” kimi yadda qalan dövr təkcə ideoloji qarşıdurma və informasiya müharibəsi ilə bitmirdi. ABŞ hökuməti bununla əlaqədar hədə-qorxu və məcburetmə üsullarına əl atır, həmçinin Bolqarıstan, Polşa və Rumıniyada Yalta-Potsdam sazişinin pozulmasına etiraz edərək lazımi tədbirlər görməyə çağırırdı [2, s. 11]. “Truman doktrinası”, həmçinin Türkiyə [5, s. 52] və Yunanıstana Sovet təcavüzü qarşısında lazımi iqtisadi, hərbi və siyasi yardım göstəriləcəyini bəyan edirdi [1, s. 100]. Sözügedən doktrina SSRİ lideri İ.V. Stalinin iştirakı ilə II Dünya müharibəsi dövründə və müharibədən sonra yaradılmış beynəlxalq münasibətlərə yenidən baxılması məsələsini qaldırdı. Böyük Britaniyanın Baş naziri Uinston Çörçill (II Dünya müharibəsinin sonunda Klement Ettli) və ABŞ prezidenti Franklin Delano Ruzveltlə (II Dünya müharibəsinin sonunda Harri Trumen) yanaşı “Trumen doktrinası”nın ərsəyə gətirilməsində aşağıdakı şəxslər də yaxından iştirak etmişdi: Allen Welch Dulles (1893-1969) - amerikalı diplomat və kəşfiyyatçı, 1953-1961-ci illərdə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru; Loyal Henderson (1892–1986) - amerikalı diplomat, SSRİ və Yaxın Şərq üzrə mütəxəssis; Den Açeson (1893-1971) - 1949-1953-cü illərdə H.Truman administrasiyasında Dövlət katibi vəzifəsində çalışmış amerikalı siyasətçi; Corc Kennan (1904–2005) - tanınmış amerikalı politoloq, “Tutma siyasətinin” (qarşısını almaq mənasında) banisi.

Adi silahların və nüvə silahının sayı çoxaldıqca “Soyuq müharibə” də daha təhlükəli olmağa başladı. Hətta 1962-ci ildə “Kuba raket böhranı” zamanı özünü büruzə verən III Dünya müharibəsi təhlükəsi yarandı. 1989-cu ildə SSRİ lideri M.S.Qorbaçov (1931-2022, 1985-1991-ci illərdə SSRİ-nin rəhbəri) və ABŞ prezidenti Corc Herbert Uoker Buş Böyük (1924–2018, 1989-1993-cü illərdə ABŞ-ın 41-ci prezidenti) arasında Malta sammitində (sammit 1989-cu il dekabr ayının 2-3-də Malta adasında baş tutmuşdu) əldə edilən razılaşma ilə soyuq müharibəyə son qoyuldu. Soyuq müharibəyə rəsmən son qoyan sənəd isə 1990-cı il

noyabrın 21-də ATƏT-ə üzv dövlətlərin dövlət və hökumət başçılarının görüşündə (Yeni Avropa üçün Paris Xartiyası) imzalandı. 1992-ci ilin əvvəlində Rusiya Prezidenti B.N.Yeltsin (1931-2007, 1991-1999-cu illərdə Rusiya Federasiyasının prezidenti) bəyan etdi ki, onun ölkəsinin nüvə raketləri indi ABŞ və onun Avropadakı hərbi müttəfiqlərinə deyil, Yer kürəsinin yaşayış olmayan ərazilərinə yönəldilmişdir. Nəhayət, 1 fevral 1992-ci ildə Vaşinqtondan 100 km şimal-qərbdə, Merilend ştatında yerləşən və ABŞ Prezidentinin istirahət yeri kimi nəzərdə tutulan Kemp Devid (Kemp Deviddən bir neçə kilometr aralıda "Site R" kimi tanınan Raven Rock sığınacağı var) adlı yerdə ABŞ (Corc Buş Böyük) Rusiya (Boris N. Yeltsin) arasında imzalanan qətnamə Rusiya-ABŞ qarşıdurmasına qəti şəkildə son qoydu. Lakin 2013-2014-cü illərdə Ukrayna böhranı, Krımın Rusiya tərəfindən ilhaqı, nəhayət, 24 fevral 2022-ci il tarixində Rusiya ordusunun Ukraynaya hərbi təcavüzü müasir dünya tarixində "İkinci Soyuq müharibə" kimi tanınan yeni hərbi-siyasi qarşıdurmanı ortaya çıxartdı. Beləliklə, II Dünya müharibəsindən sonra başlanmış mübarizə yeni, daha gərgin və təhlükəli mövzularla inkişaf etməyə başladı. Beləliklə, müasir dünyada cərəyan edən hərbi-siyasi proseslər mövcud qarşıdurmanı getdikcə daha da kəskinləşdirir, bəşəriyyəti sürətlə apokaliptik apofeoza aparır.

Dünyada durmadan artan gərginliyin fonunda XX əsrin 50-60-cı illərində ABŞ, Qərbi Avropa ölkələri və Yaponiya arasında münasibətlərin normallaşdırılmasında mühüm irəliləyişlər əldə edildi. 1951-ci il 8 sentyabr tarixində San-Fransiskoda (ABŞ) Yaponiya ilə keçmiş antihitler koalisiyasının bir neçə ölkəsi arasında yeni müqavilə imzalandı. Müqavilə Yaponiya ilə Qərb dövlətləri arasındakı müharibə vəziyyətinə son qoydu, Yaponiyanın təzminat ödəmələri məsələsini qanuniləşdirdi. SSRİ, Çexoslovakiya və Polşa müqaviləni imzalamaqdan imtina etdilər. Onu da qeyd edək ki, mərasimə Çin və SSRİ nümayəndə heyətləri dəvət olunmamışdı. Bunun səbəbi isə Çinin Tayvana, Peskador və Parasel adalarına iddialarının nəzərə alınmaması, Cənubi Saxalin və Kuril adaları üzərində SSRİ-nin suverenliyinin qeyd edilməməsi idi. San-Fransisko müqaviləsindən sonra Yaponiya adalarının işğalı (Yaponiya 1945-ci il sentyabrın 2-dən müttəfiqlərin tam nəzarəti altında idi) 1952-ci ildə sona çatdı. 1954-cü ildə Yaponiya II Dünya müharibəsindən sonra ilk Özünümüdafiə Qüvvələrini (bu gün sayı 247 746 nəfərdir) yaratdı [4].

1953-cü il avqustun 19-da ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) gördüyü məxfi tədbirlər nəticəsində 1951-1953-cü illərdə İranın baş naziri olmuş Məhəmməd Mossadıq (1882-1967) İran neft sənayesini milliləşdirmək üçün təklif etdiyi layihəyə görə devrildi ("Ayaks" əməliyyatı). Onu Fəzlullah Zahidi (1897–1963, 1953-1955-ci illərdə İranın baş naziri) əvəz etdi. XX yüzilliyin 50-ci illərdə Qərbin təsiri altında Yaxın Şərqdə baş verən ən mühüm hadisələrdən biri də Süveyş böhranı (Süveyş müharibəsi, Sinay müharibəsi və ya II Ərəb-İsrail müharibəsi kimi də tanınır. Münaqişə tarixdə "Kadeş" əməliyyatı və yaxud "Üçlü təcavüz" kimi də qalmışdır). 1956-cı ilin oktyabrından 1957-ci ilin martına qədər davam edən həmin münaqişə nəticəsində Misirin baş naziri Əbdül Nasir Süveyş kanalı üzərində Misir dövlətinin inzibati statusunu təsdiqləməyə nail oldu. Bu hadisələrin fonunda 1955-ci il 24 fevral ayının 24-də Böyük Britaniya, ABŞ və Türkiyənin təşəbbüsü ilə Yaxın Şərqdə Mərkəzi Müqavilə Təşkilatı (CENTO, *The **Cen**tral **T**reaty **O**rganization,* "Bağdad Paktı" - ing. *The Baghdad Pact,* - kimi də tanınır) yaradıldı. 26 sentyabr 1979-cu ilə qədər qüvvədə qalan Bağdad paktı İran, İraq, Pakistan, Türkiyə və Böyük Britaniyanı əhatə edirdi.

XX əsrin 50-ci illərində Yaxın Şərqdə baş vermiş qalmaqallı və səs-küylü hadisələrdən biri də 1958-ci il iyul ayının 14-də İraq ordusunun generalı Əbdül Kərim Qasımın (1914-1963, 1958-1963-cü illərdə İraqın Baş naziri və Müdafiə Naziri) başçılıq etdiyi üsyan və dövlət çevrilişi nəticəsində Haşimilər monarxiyasının (1932-1958) devrilməsi olmuşdur. 1932-1958-ci illərdə İraqa hökmranlıq etmiş Haşimilər sülaləsinin sonuncu nümayəndəsi II

Seyfəl (1935-1958, 1939-1958-ci illərdə İraq kralı) ailəsi və yaxın adamları ilə birlikdə öldürüldü.

XX əsrin 50-ci illərində Avropa da ciddi ictimai-siyasi və sosial-mədəni dəyişikliklərə səbəb olan hadisələr baş verirdi. 1954-cü il oktyabr ayının 23-də Fransa, Böyük Britaniya, ABŞ, İtaliya, Kanada, Belçika, Hollandiya, Lüksemburq və AFR nümayəndələrinin imzaladığı Paris müqaviləsi ilə AFR və Avstriyada işğal rejiminə son qoyuldu (1955). Bu NATO-ya üzv dövlətlərin birgə qərarı əsasında Almaniya Federativ Respublikası da NATO-ya daxil olmaq üçün təklif aldı. Beləliklə, Almaniya Federativ Respublikasının Silahlı Qüvvələri (Bundesver) 1955-ci ildə NATO blokuna üzv oldu. Bunun hadisənin ardınca Almaniya Federativ Respublikasının Şərqi Avropadakı sosialist rejimlərinə münasibəti daha da gərginləşdi. 1957-ci ildə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (ing. *International Atomic Energy Agency, IAEA*) yaradıldı. Bu gün agentliyin baş ofisi Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir. Bu gün 180 ölkənin təmsil olunduğu "IAEA" təşkilatına hazırda argentinalı diplomat Rafael Mariano Qrossi (1961) rəhbərlik edir [3, s. 177].

XX əsrin 50-ci illərində Avropada baş verən ən önəmli hadisələrdən biri də Beşinci Fransa Respublikasının (fra. *la Cinquième République*) yaradılması olmuşdur. Beşinci Fransa Respublikası Əlcəzair müharibəsindən (fra. *Guerre d'Algérie* - 1954-1962-ci illərdə, o vaxt Əlcəzairdəki Fransız müstəmləkə hökumətindən siyasi müstəqillik tələb edən yerli qüvvələrin üsyanı, 1962-ci il martın 18-də Fransa ilə Əlcəzair arasında bağlanan Evian müqaviləsi ilə sona çatdı və 5 iyul 1962-ci ildə Əlcəzair dövləti siyasi müstəqillik əldə etdi) sonra hakimiyyətə gələn Şarl Andere Jozef de Qoll (1890-1970, 1959-1969-cu illərdə Fransa prezidenti) tərəfindən qurulmuşdur [4].

1950-ci illərdə "Qırmızı qorxu"nun ikinci dövründə (1947–1957) "Soyuq müharibə" yüksək həddə çatdı. Bu dövrdə ABŞ-da geniş antikommunist və antisovet hərəkatı ABŞ senatoru Cozef R. Makkartinin (1908-1957, - ABŞ Konqresinin Respublikaçılar partiyasından olan senatoru) adı ilə "Makkartiizm" (antikommunist və antiamerikan əhval-ruhiyyələrə qarşı repressiyalarla əlamətdar) adlandırıldı. "Makkartizm" dövrünün ən qalmaqallı hadisəsi "Rozenberq işi" (ABŞ kommunistləri Julius Rozenberqin - 1918-1953 və onun həyat yoldaşı Ethel Qringlass-Rozenbergin - 1915-1953 SSRİ-yə casusluq etmələri ilə bağlı ittiham aktı və onların edam edilməsi) idi [6, s. 87].

1952-ci ildə Böyük Britaniya tarixdə ilk dəfə olaraq nüvə silahının sınağını keçirdi. Həmin il, həmçinin ABŞ-da və SSRİ-də termonüvə bombalarının sınağı baş tutdu. Belə bir şəraitdə -1952-ci ildə ABŞ-da keçirilən prezident seçkilərində Duayt Devid Eyzenhauer (1890–1969, Respublikaçılar Partiyasından ABŞ-ın 34-cü prezidenti - 1953-1961) seçildi. 1957-ci il yanvar ayının 5-də tarixində Konqresdəki son çıxışında Duayt Eyzenhauer "Eyzenhauer doktrinası" kimi tanınan xarici siyasət proqramını elan etdi. Həmin doktrinaya görə, köməyə ehtiyacı olan və hərbi təcavüzə məruz qalan istənilən ölkə yardım üçün ABŞ-a müraciət edə bilərdi. Eyzenhauer doktrinasında ABŞ prezidenti sovet təhlükəsini xüsusi qeyd edirdi. Bu hadisələrin fonunda isə sürətlə silahlanma prosesi daha da intensiv xarakter aldı. 1957-ci ildə SSRİ qitələrarası ballistik raketləri sınaqdan keçirdi, 1958-ci ildə isə ABŞ eyni şeyi etdi. II Dünya müharibəsindən sonra cərəyan edən qlobal proseslər aydın şəkildə nümayiş etdirir ki, bu gün gündən-günə artan qlobal gərginliyin əsas planı məhz o zaman qoyulmuş və hərəkətə gətirilmişdir. Bu baxımdan, qarşımızda cərəyan edən hadisələri nəzərə alsaq, müharibə və münaqişə ideyasının özü əbədi və dəyişməz olduğu aydın olur.

## *Nəticə*

Sivilizasiya tarixi xalqların daimi miqrasiyası fonunda dünyanın siyasi xəritəsində baş verən dəyişikliklərə dinamik impulslar verən davamlı islahatlar aktıdır. Bu tarix həm də etnik qruplar və millətlər arasında bir çox münaqişələrin və müharibələrin tarixidir. Bu hekayədə

güclülər və zəiflər, təcavüzkarlar və qurbanlar, zalımlar və məzlumlar dünyanın ümumi mənzərəsinə rəng qatır və onu tarixə çevirir. Təsvir edilən ssenaridə fövqəladə hərbi-siyasi xarakterli qüvvə dünya nizamını öz maraqlarına uyğun formalaşdırır, siyasi iradədən məhrum edilmiş subyektlərin istəklərini nəzərə almadan sərhədləri və mövqeləri dəyişir və nəticədə ciddi münaqişələrlə dolu mürəkkəb geosiyasi konfiqurasiya yaradır. Bu konfiqurasiya siyasi savadsızlığın nəticəsi deyil, məqsədyönlü şəkildə hazırlanmış, uzun müddət üçün nəzərdə tutulmuş hiyləgər layihədir. O, mürəkkəb birləşmələri və xoşagəlməz hərəkətləri əhatə edən dünyanı idarə etmək və hadisələri manipulyasiya etmək üçün bir vasitə kimi xidmət edir. Nəzərdən keçirilən layihənin ən məkrli elementi coğrafiya, sevimli silahı isə geosiyasətdir. Onlardan insanları daim asılı vəziyyətdə saxlamaq, onları diqtə olunan qaydaları qəbul etməyə məcbur etmək və vəziyyəti nəzarətdə saxlayanların hakimiyyəti altında yaşamaq üçün istifadə olunur.

Qeyd edək ki, müasir dünyada yaxın və uzaq tarix üçün düşünülmüş və məqsədyönlü şəkildə yaradılmış, hazırda isə qlobal geosiyasətin maraqlarına xidmət edən çoxlu sayda oxşar geosiyasi sxemlər mövcuddur. Lakin öz daxilində güc və siyasi iradə tapan bəzi xalqlar dünya dövlətlərinin şıltaqlıqlarını qəbul etməkdən boyun qaçırır və onların hazırladıqları layihələrdə müvafiq düzəlişlər etməyə çalışırlar. Bu cəhdlərin nəticələri nə qədər acı olsa da, müəyyən mənada bəhrəlidir və tarixi ədalətsizliyə məruz qalmış xalqlarda müəyyən ümid və inam yaradır. Bütün bunlar dünya düzəninin "müxtəlif daşlardan və kərpiclərdən qurulduğunu" nümayiş etdirir. Bu strukturda hər kəs öz yerini, mövqeyini, məqsədini, missiyasını, dostunu, düşmənini və əsas məqsədlərini dəqiq müəyyən edir. Lakin əsrlər ərzində cızılan dünya layihəsinin konturlarında ədalətdən uzaq, bütün azadlıqsevər və nəcib xalqların inkişafına, tərəqqisinə, birliyinə, xoşbəxtliyinə, gələcəyinə əngəllər yaradan saysız-hesabsız məqamlar var. Onlar münaqişənin əsas mənbəyi, regional və qlobal miqyasda qarşıdurma yaratmaq üçün hazırlanmış hiyləgər və məkrli siyasi hərəkətlərin mərkəzi olaraq qalır. Beləliklə, məlum olur ki, ciddi psixoloji çəkiyə və mühüm sosial aspektlərə malik olan "sülh", "təhlükəsizlik", "yeni dünya nizamı" və "geosiyasət" anlayışları daha geniş elmi araşdırmalar tələb edir.

## ƏDƏBİYYAT


1. Gerolymatos, Andre, 2017. International Civil War: Greece, 1943–1949. Yale University Press. 197 p.
2. Gleason, Abbott, 2019. "The Truman Doctrine and the Rhetoric of Totalitarianism." Rethinking the Soviet Empire (Routledge, 1995). 15 p.
3. Holloway, David. 2016. "The Soviet Union and the creation of the International Atomic Energy Agency." *Cold War History* 16.2 (2016): 177-193.
4. Kapur, Nick (2018). Japan at the Crossroads: Conflict and Compromise after Anpo. Cambridge, MA: Harvard University Press. P. 9.
5. Kayaoğlu, Barın, 2009. "Strateji imperativlər, Demokratik ritorika: ABŞ və Türkiyə, 1945-52.

   Soyuq Müharibə Tarixi, 2009. - Cild 9 (3) – S. 321-322 (türk dilində).
6. Radosh, Ronald (2012). "A Tale of Two Trials: Soviet Propaganda at Home and Abroad". World Affairs. 175. (Vol. 95, № 1 - Vol. 186, No. 4). p 80-87.

УДК 327.5

*Эльгун Махаммадали оглы Асланов*
*Азербайджанский Государственный Аграрный Университет*
*Ильхам Мабуд оглы Мамедов*
*Мингячевирский Государственный Университет*
*Эльвира Исмаил кызы Ахмедова*
*Азербайджанский Государственный Аграрный Университет*

# ВЫЗОВЫ МИРУ И БЕЗОПАСНОСТИ В СОВРЕМЕННОМ МИРЕ: НОВЫЙ МИРОВОЙ ПОРЯДОК И ГЕОПОЛИТИКА

*РЕЗЮМЕ*

*Ключевые слова:* геополитика, глобальная политика, новый мировой порядок, война, мир

После Второй мировой войны и особенно в 1950–1960-е годы социально-экономические и военно-политические процессы, происходившие в США и Европе, способствовали формированию нового мирового порядка. Однако вскоре стало очевидно, что мировой порядок, созданный сверхдержавами, не обеспечивает ни сохранения мира и безопасности, ни установления справедливости на Земле. Система безопасности, созданная в тот период в интересах отдельных центров силы, не только не оправдала себя, но и способствует обострению многочисленных конфликтов, искусственно возникших десятилетия назад и зашедших в тупик в плане их разрешения. В представленной научной статье исследуются возникновение новых очагов напряженности во всем мире под влиянием военно-политических процессов, происходивших в США и Западной Европе в 1950–1960-е годы, а также формирование двух противоборствующих систем во главе с США и СССР, находившихся в смертельной борьбе друг с другом. В отношении современного периода основное внимание направлено на выявление сущности проблем, препятствующих установлению мира и безопасности на Земле, и механизмов их воздействия. Положения, связанные с решением этих проблем, рассматриваются в контексте построения нового мирового порядка. Раскрывается сущность планов государств мира в области глобальной политики и геополитики, а также проясняются их перспективы. В статье подчеркивается мысль о том, что противостояние, начавшееся во второй половине XX века и усиливающееся с каждым днем, заложило основу современной глобальной напряженности на Земле. Идея о неизбежности войны и конфликтов, сохраняющаяся на протяжении всей истории человечества, рассматривается как часть всемирного сценария и составляет лейтмотив статьи.

UDC 327.5

*Elgun Mahammadali Aslanov*
*Azerbaijan State Agricultural University*
*Ilham Mabud Mammadov*
*Mingachevir State University*
*Elvira Ismayil Ahmadova*
*Azerbaijan State Agricultural University*

CHALLENGES TO PEACE AND SECURITY IN THE MODERN WORLD:
THE NEW WORLD ORDER AND GEOPOLITICS
*SUMMARY*

*Keywords:* geopolitics, global politics, new world order, war, peace

After the Second World War, and especially during the 1950s and 1960s, the socio-economic and military-political processes taking place in the United States and Europe stimulated the formation of a new world order. However, it soon became evident that the world order established by the superpowers was incapable of ensuring peace and security or creating conditions for the establishment of justice on Earth. The security system created at that time in the interests of particular centers of power has not only failed to prove effective today, but has also contributed to the escalation of numerous conflicts that were artificially created decades ago and have reached a deadlock in terms of resolution. This scholarly article examines the emergence of new centers of tension throughout the world under the influence of the military-political developments that occurred in the United States and Western Europe during the 1950s and 1960s, as well as the formation of two opposing systems led by the United States and the USSR, which were engaged in a struggle for survival against one another. Regarding the contemporary period, the primary focus is directed toward identifying the nature of the problems that hinder the establishment of peace and security and analyzing the mechanisms through which these problems exert their influence. Approaches to the resolution of these issues are considered within the context of establishing a new world order. The article explains the essence of global political and geopolitical strategies pursued by states around the world and clarifies their future prospects. It emphasizes that the confrontation that began in the second half of the twentieth century and has continued to intensify has laid the foundation for the tensions that exist across the globe today. The central theme of the article is the idea that war and conflict, which have remained inevitable throughout human history, continue to constitute an integral part of the universal historical narrative.

***Daxil oldu: 23.06.2026-cı il***